Deloitte.



# Azərbaycan vergi xəbərləri

## Vergi Məcəlləsinə edilən dəyişikliklərin təqdimatı

**Yanvar 2022**

MAKING AN IMPACT THAT MATTERS since 1845

# Mündəricat


| | |
|---|---|
| Nəzarət olunan xarici müəssisə | 4 |
| Bazar və transfer qiyməti | 7 |
| Daimi nümayəndəlik | 11 |
| Vergi ödəyicisi və vergi orqanlarının hüquq və vəzifələri | 14 |
| Vergi öhdəliklərinin yerinə yetirilməsi müddətləri | 21 |
| Vergi nəzarəti | 25 |
| Vergitutma obyekti | 32 |
| Maliyyə sanksiyaları | 34 |
| Elektron qaimə-faktura | 38 |
| Mənfəət vergisi | 42 |
| Ödəmə mənbəyində vergi | 47 |
| MÖMV | 52 |
| Əlavə dəyər vergisi | 54 |
| Aksiz verigisi | 59 |
| Əmlak vergisi | 63 |
| Digər dəyişikliklər | 65 |
| Nağdsız hesablaşmalar haqqında Qanuna dəyişikliklər | 70 |


© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Giriş



**Nuran Kərimov**

**Partnyor**

Vergi və Hüquq xidmətləri

Tel:+994 (12) 4041210

Email: nkerimov@deloitte.az



**Nərmin Aslanova**

**Direktor**

Vergi və Hüquq xidmətləri

Tel:+994 (12) 4041210

Email: naslanova@deloitte.az

Bildirmək istəyirik ki, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə dəyişiklik edilməsi haqqında Qanun (bundan sonra Qanun) Azərbaycan Republikasının Prezidenti tərəfindən 29 dekabr 2021-ci ildə təsdiq edilmişdir.

Vergi Məcəlləsinə edilən növbəti əsaslı dəyişikliklər seriyası Məcəlləyə yeni anlayışların daxil edilməsi ilə yanaşı bir çox digər yenilikləri də əhatə edir. Belə ki, yeniliklərin əhatə dairəsi əsasən kölgə iqtisadiyyatı ilə mübarizəyə qarşı vergi nəzarət mexanizmlərinin gücləndirilməsi, vergi əməletməsi ilə bağlı vergi ödəyiciləri üçün nəzərdə tutulan vəzifələr, vergi inzibatçılığı ilə bağlı tələblərin artırılması, beynəlxalq vergiqoyma ilə bağlı yeni konsepsiyaların tətbiqi, rəqəmsallaşma fonunda texnologiyaların tətbiqinin genişləndirilməsi və eləcədə bir sıra digər dəyişikliklərdən ibarətdir.

Bu buraxılışımızda sizə yuxarıda sadalanan və həmçinin ayrı-ayrı vergi növləri üzrə nəzərdə tutulan dəyişiklikləri həm birbaşa həm də müqayisəli formada nəzərinizə çatdırmaq istəyirik.

Dəyişikliklərlə bağlı hər hansı sualınız yaranarsa bizə çəkinmədən müraciət edə bilərsiniz.

Hörmətlə,

Deloitte Veri və Hüquq Komandası

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Nəzarət olunan xarici müəssisə

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Nəzarət olunan xarici müəssisə

## Yeni anlayış

- Vergitutma məqsədləri üçün Azərbaycan Respublikasının rezidenti hesab olunmayan, güzəştli vergi tutulan ölkələrdə (ərazilərdə) qeydiyyatdan keçən müəssisə nəzarət olunan xarici müəssisə hesab edilir və onun mənfəəti aşağıdakı hallarda Azərbaycanda vergiyə cəlb olunur:
  - Azərbaycan Respublikasının rezidenti hesab edilən şəxs özü və ya qarşılıqlı surətdə asılı olduğu rezident və ya qeyri-rezident şəxslə birlikdə birbaşa və ya dolayısı ilə xarici müəssisədə 50 faizdən çox səsvermə hüququna və ya onun nizamnamə kapitalının 50 faizindən çoxuna və ya həmin xarici müəssisənin mənfəətinin 50 faizindən çox hissəsini əldə etmək hüququna sahibdirsə;
  - Nəzarət olunan xarici müəssisənin mənfəətindən faktiki ödənilən vergi, Azərbaycan Respublikasının vergi qanunvericiliyinə uyğun olaraq həmin mənfəətdən ödənməli mənfəət vergisindən 2 dəfə və ya daha çox aşağı olarsa;
  - Xarici müəssisənin illik gəlirlərinin 30 faizdən çox olan hissəsi aşağıdakı gəlirlərdən ibarət olarsa:
    - maliyyə aktivlərindən əldə edilən faiz;
    - əqli mülkiyyətdən əldə edilən royalty;
    - səhmlərin və iştirak paylarının satışından əldə edilən gəlirlər;
    - maliyyə lizinqindən əldə edilən gəlirlər;
    - sığorta, bankçılıq və digər maliyyə əməliyyatlarından əldə edilən gəlirlər;
    - heç bir iqtisadi dəyər yaratmayan mal və xidmətlərdən gəlir.

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Nəzarət olunan xarici müəssisə

- Nəzarət olunan xarici müəssisə haqqında məlumat 31 mart tarixinə kimi rezident fiziki və hüquqi şəxslər tərəfindən vergi orqanına təqdim edilməlidir. Arayışları müəyyən edilən müddətlərdə təqdim etməyən və ya arayışlarda düzgün olmayan məlumatlar göstərən vergi ödəyicisinə 2,000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

- Nəzarət olunan xarici müəssisənin mənfəəti Azərbaycan Respublikasında vergiyə cəlb edilərkən eyni vergitutma obyektindən iki dəfə vergilərin hesablanmasına yol verilmir və həmin mənfəətdən ödənilən (tutulan) nəzərə alınır.

- Nəzarət olunan xarici müəssisədən əldə edilən aşağıdakı gəlirlər nəzarət olunan xarici müəssisənin vergitutulan gəlirlərinə aid edilmir:
  - Nəzarət olunan xarici müəssisədən əldə edilən dividendlər;
  - Rezident müəssisə nəzarət olunan xarici müəssisənin törəmə müəssisəsi olduqda nəzarət olunan xarici müəssisənin ümumiləşdirilmiş (konsolidə edilmiş) mənfəətindən rezident müəssisəyə aid olan vergiyə cəlb olunan mənfəət;
  - Nəzarət olunan xarici müəssisənin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyi vasitəsilə əldə edilən, habelə Azərbaycan Respublikasında təsis etdiyi müəssisədən əldə olunan və Azərbaycan Respublikasında vergiyə cəlb olunmuş gəlirlər.

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Bazar qiymәti vә transfer qiymәti



# Bazar qiyməti

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| • 14.3.3. 30 gün ərzində vergi ödəyicilərinin eyni xüsusiyyətli və ya eyni cinsli mallara (işə, xidmətə) tətbiq etdikləri qiymətlərin səviyyəsi, bu Məcəllənin 14.6.1-ci maddəsinin tələbləri nəzərə alınmaqla, bazarda eyni (analoji) mal (iş, xidmət) üçün müvafiq əməliyyatlar zamanı təşəkkül tapan qiymətlərin səviyyəsindən 30 faizdən çox (aşağı və yuxarı) fərqləndikdə vergi hesablanması zamanı bazar qiyməti nəzərə alınacaqdır. | • 14.3.3. 30 gün ərzində vergi ödəyicilərinin eyni xüsusiyyətli və ya eyni cinsli mallara (işə, xidmətə) tətbiq etdikləri qiymətlərin səviyyəsi, bu Məcəllənin 14.6.1-ci maddəsinin tələbləri **o cümlədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş təbii itki normaları daxilində zayolmadan əmələgələn itkilər** nəzərə alınmaqla, bazarda eyni (analoji) mal (iş, xidmət) üçün müvafiq əməliyyatlar zamanı təşəkkül tapan qiymətlərin səviyyəsindən **topdansatış ticarət fəaliyyəti sahəsində 10 faizdən, tikinti və istehsal fəaliyyəti sahəsində 20 faizdən, digər fəaliyyət sahələrində** 30 faizdən çox (aşağı və yuxarı) fərqləndikdə vergi hesablanması zamanı bazar qiyməti nəzərə alınacaqdır. |

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Transfer qiyməti

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| • 14-1.2., 14-1.2.1. Azərbaycan Respublikasının rezidenti ilə onunla qarşılıqlı surətdə asılı olan qeyri-rezident şəxslər arasında həyata keçirilən əməliyyatlardan transfer qiyməti əsas götürülməklə vergilər hesablana bilər. | • 14-1.2., 14-1.2.1. Azərbaycan Respublikasının rezidenti ilə onunla qarşılıqlı surətdə asılı olan qeyri-rezident şəxslər, **habelə həmin rezidentin başqa dövlətlərdə (ərazilərdə) yerləşən hər hansı nümayəndəliyi, filialı və digər bölməsi** arasında həyata keçirilən əməliyyatlardan transfer qiyməti əsas götürülməklə vergilər hesablana bilər. |
| • Bu Məcəllənin 16.1.4-cü maddəsində göstərilən arayışı müəyyən edilən müddətdə təqdim etməyən və ya arayışda düzgün olmayan məlumatlar göstərən vergi ödəyicisinə vergi orqanının rəhbərinin (onun müavininin) qərarına əsasən 500 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir. | • 57.4. Bu Məcəllənin 16.1.4-cü **və 16.1.4-3-cü** maddələrində göstərilən arayışları müəyyən edilən müddətlərdə təqdim etməyən və ya arayışlarda düzgün olmayan məlumatlar göstərən vergi ödəyicisinə vergi orqanının rəhbərinin (onun müavininin) qərarına əsasən **2,000** manat məbləğində maliyyə sanksiyası tətbiq edilir. |

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Transfer qiyməti

## Əlavələr

- 14-1.2.4. Azərbaycan Respublikasının rezidenti və ya qeyri-rezidentin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyi ilə qeyri-rezident şəxslər arasında da transfer qiyməti əsas götürülməklə vergi hesablana bilər. Bu şərtlə ki:
  - şəxslər beynəlxalq əmtəə birjalarında ticarət olunan məhsullar üzrə əməliyyat aparmış olsunlar və (və ya);
  - Azərbaycan Respublikasının rezidenti və ya qeyri-rezidentin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinin vergi ili ərzində ümumi gəlirləri 30 milyon manatdan çox və hər bir qeyri-rezident şəxslə apardığı əməliyyatların həcminin ümumi gəlirlərdə (xərclərdə) xüsusi çəkisi 30 faizdən artıq olsun.

- 16.1.4-1. bu Məcəllənin 14-1.9-cu maddəsində nəzərdə tutulan müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən qaydalarda nəzərdə tutulmuş sənədləri vergi orqanının tələbi ilə təqdim etmək vergi ödəyicisinin vəzifəsi olaraq təsbit edilib.

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Daimi nümayəndəlik



© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Daimi nümayəndəlik

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| • 19.2. Daimi nümayəndəlik, əsasən aşağıdakıları əhatə edir, amma bunlarla məhdudlaşdırılmır:<br>- 19.2.10. qeyri-rezident müəssisələrin və ya qeyri-rezident fiziki şəxsin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyi funksiyalarını həyata keçirən, onların adından fəaliyyət göstərən, onların adından müqavilələri hazırlamaq və ya bağlamaq səlahiyyətlərinə malik olan və adətən belə səlahiyyətləri həyata keçirən şəxsləri; | • 19.2. Daimi nümayəndəlik, əsasən aşağıdakıları əhatə edir, amma bunlarla məhdudlaşdırılmır:<br>- 19.2.10. qeyri-rezident müəssisələrin və ya qeyri-rezident fiziki şəxsin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyi funksiyalarını həyata keçirən, onların adından fəaliyyət göstərən, **onlar üçün müştəri bazasının toplanması və müştərilərlə işin təşkilini həyata keçirən**, onların adından müqavilələri hazırlamaq və ya bağlamaq səlahiyyətlərinə malik olan və adətən belə səlahiyyətləri həyata keçirən şəxsləri; |

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Daimi nümayəndəlik

## Əlavələr

- 19.2-1. Bu Məcəllənin 19.2.5-ci maddəsində nəzərdə tutulan fəaliyyəti baş podratçı kimi qeyri-rezident şəxs həyata keçirdiyi halda, onun bu fəaliyyəti həyata keçirmək üçün cəlb etdiyi və qarşılıqlı surətdə asılı olduğu və (və ya) fəaliyyətinə nəzarəti həyata keçirdiyi digər subpodratçı şəxslərin bu işlər üçün göstərdiyi fəaliyyətin müddəti baş podratçının fəaliyyət müddətinə əlavə edilir. Bu maddənin müddəaları subpodratçı şəxslərin fəaliyyət müddəti 30 gündən artıq olduğu halda tətbiq edilir.

- 19.3-1. Qeyri-rezident şəxs və onunla qarşılıqlı surətdə asılı olan şəxslər tərəfindən Azərbaycan Respublikasında bu Məcəllənin 19.3-cü maddəsində sadalanan fəaliyyət növlərinin hər hansı birinin birgə şəkildə həyata keçirilməsi sahibkarlıq məqsədləri daşıdığı və ya bu fəaliyyət növlərinin hər hansı biri üzrə əlaqəli şəkildə həyata keçirilməsinin nəticələri hazırlıq və ya yardımçı xarakter daşımadığı və (və ya) belə şəxslər tərəfindən həyata keçirilən fəaliyyətlər onların vahid biznes prosesinin tərkib hissəsi olaraq bir birinə münasibətdə qarşılıqlı tamamlanma funksiyasını daşıdığı halda bu Məcəllənin 19.3-cü maddəsinin müddəaları tətbiq edilmir və həmin şəxslərin fəaliyyətinə daimi nümayəndəlik kimi baxılır.



© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergi ödəyicisi və vergi orqanlarının hüquq və vəzifələri



© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergi ödəyicisi və vergi orqanlarının hüquq və vəzifələri

## Vergi ödəyicilərinin vəzifələri

- 16.1.4-2. mikro və kiçik sahibkarlıq subyektləri istisna olmaqla, istehsal fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən istehsal olunan məhsulun vahidinə tələb olunan **xammal və material sərfi normaları barədə** forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən məlumatı hər il yanvar ayının 31-dək elektron qaydada vergi orqanına təqdim etmək. İstehsal prosesi ilə, o cümlədən yeni məhsul növünün istehsalına başlanılması ilə bağlı olaraq təqdim edilmiş məlumatda il ərzində dəyişiklik olarsa dəyişikliklə bağlı dürüstləşdirilmiş məlumatı təqvim ili ərzində vergi orqanına təqdim etməlidirlər.

Bu maddədə göstərilən məlumat formasının müəyyən edilmiş müddətdə təqdim edilməməsinə və ya təhrif olunmuş məlumatların göstərilməsinə görə vergi ödəyicisinə 1,000 manat məbləğində maliyyə sanksiyası tətbiq ediləcəkdir.

- 16.1.6. Orta və iri sahibkarlıq subyektləri Məcəllədə göstərilən sənədlərlə yanaşı, **maliyyə hesabatlarını** da vergi orqanının tələbi ilə təqdim etməlidir.

Vergi hesabatı təqdim edilərkən vergi orqanının tələbi ilə maliyyə hesabatlarının təqdim edilməməsinə görə orta və iri sahibkarlıq subyektlərinə 1,000 manat məbləğində maliyyə sanksiyası tətbiq ediləcəkdir.

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergi ödəyicisi və vergi orqanlarının hüquq və vəzifələri

## Vergi ödəyicilərinin vəzifələri

- 16.1.8. qeyd edilən bir sıra fəaliyyət növləri istisna olmaqla, pərakəndə ticarət, ictimai iaşə fəaliyyəti, **yerləşmə vasitələri hesab edilən mehmanxana (hotel) və mehmanxana tipli digər obyektlər, tibb müəssisələri, bərbərxanalar, gözəllik salonları və kosmetoloji mərkəzlər** tərəfindən göstərilən xidmətlər üzrə pul hesablaşmaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən meyarlara cavab verən və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) elektron informasiya sisteminə real vaxt rejimində qoşulmuş nəzarət-kassa aparatı vasitəsi ilə həyata keçirilməlidir.
- Bu maddə üzrə istisna təşkil edən fəaliyyət növünə idman mərc oyunu biletlərinin və elektron idman mərc oyunu biletlərinin satışı əlavə edilmişdir.

- 16.1.11-10. vergi orqanında uçotda olmayan fiziki şəxslərdən alınmış mallara görə alış aktını **və "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq avtomobil nəqliyyatı vasitəsilə əmtəə təyinatlı yüklərin daşınmasına görə elektron əmtəə-nəqliyyat qaiməsini və yük avtonəqliyyatı üçün elektron yol vərəqini** tərtib etmək də vergi ödəyicisinin vəzifəsi hesab edilir.

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergi ödəyicisi və vergi orqanlarının hüquq və vəzifələri

## Vergi ödəyicilərinin vəzifələri

- 16.1.11-11. Neft-qaz sahəsində fəaliyyəti olan və ya dövlət sektoruna aid edilən vergi ödəyiciləri istisna olmaqla, digər vergi ödəyiciləri idxal ediləcək mallar barədə aşağıdakı məlumatları malların idxal olunacağı tarixədək qeydiyyatda olduğu vergi orqanına verməlidir:
    - Mülkiyyət, icarə və ya digər əşya hüquqları əsasında istifadə edilən və (və ya) vergi orqanlarında təsərrüfat subyekti (obyekti) kimi uçota alınmış malların saxlanılacağı (boşaldılacağı) yer barədə;
    - Mallar digər şəxslərə məxsus yerlərdə məsuliyyətli mühafizəyə və ya saxlanca verildiyi halda tərəflər arasında bağlanmış müqavilə və malların saxlanma yeri barədə;
    - Mallar sifariş əsasında gətirildiyi halda sifariş verən şəxslər barədə (sifarişçi vergi ödəyicisi olduqda VÖEN-i, fiziki şəxs olduqda adı, soyadı, atasının adı və FİN-i) və hər bir sifarişçi üzrə sifarişin məbləği barədə.
- Mallarının saxlanıldığı (boşaldıldığı) yerə həmin mallar idxal edildiyi vaxtdan **3 iş günü** müddətində vergi orqanının baxış keçirmək hüququ vardır. Məlumatları təqdim etməyən və ya təhrif olunmuş formada təqdim edən vergi ödəyicisinə müvafiq olaraq idxal edilmiş malların hesab-faktura (invoys) dəyərinin və ya onun təhrif olunmaqla təqdim edilmiş hissəsinin mikro sahibkarlıq subyektlərinə münasibətdə **2 faizi** miqdarında, digər şəxslərə münasibətdə **5 faizi** miqdarında maliyyə sanksiyası tətbiq edilir.

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergi ödəyicisi və vergi orqanlarının hüquq və vəzifələri

## Vergi ödəyicilərinin vəzifələri

- 16.10. ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyiciləri bu Məcəllənin 149-cu maddəsində nəzərdə tutulan müddətlərdə təqdim etdikləri bəyannamələrlə eyni gündə vergi ili üzrə **kreditor və debitor borcları** barədə məlumatı elektron qaydada vergi orqanına təqdim etməlidir.

Kreditor və debitor borclar barədə məlumat formasının müəyyən olunan müddətlərdə təqdim edilməməsinə görə vergi ödəyicisinə vergi orqanının rəhbərinin (onun müavininin) qərarına əsasən 100 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergi ödəyicisi və vergi orqanlarının hüquq və vəzifələri

## Vergi ödəyicilərinin vəzifələri

- 16.11. Hər iki tərəfi vergi ödəyicisi olan şəxslər arasında ödəniş əməliyyatı aparılarkən əməliyyatı həyata keçirən banka və ya bank əməliyyatlarını həyata keçirən digər şəxslərə təqdim edilən ödəmə tapşırığında aşağıdakı məlumatlar göstərilir:
  - bu Məcəllənin 71-1.5-ci maddəsində göstərilən əməliyyatlar üzrə - elektron qaimə-fakturanın seriya və nömrəsi. Təqvim ayı ərzində eyni vergi ödəyicisindən müntəzəm və daimi əsaslarda alınan və elektron qaimə-fakturalar ilə rəsmiləşdirilən mallara (işlərə, xidmətlərə) görə ödəniş aparılarkən belə əməliyyatlar üzrə - tərəflər arasında bağlanmış müqavilə və ya həmin müqaviləyə əlavənin tarixi və nömrəsi;
  - xarici ticarət fəaliyyəti üzrə - yük gömrük bəyannaməsinin seriya və nömrəsi, işlərin və xidmətlərin alışı ilə bağlı hesab faktura (invoys) sənədinin tarixi və nömrəsi;
  - borc ödəmələri üzrə - təyinatında borc ödənişi olduğu göstərilməklə tərəflər arasında bağlanmış borc müqaviləsinin və ya borcun ödənilməsinə dair tələbnamənin tarixi və nömrəsi;
  - avans ödəmələri üzrə - təyinatında avans ödənişi olduğu göstərilməklə tələbnamənin, yaxud tərəflər arasında bağlanmış müqavilə və ya həmin müqaviləyə əlavənin tarixi və nömrəsi.

Bu məlumatları ödəmə tapşırığında göstərməyən və ya təhrif edilməklə göstərən vergi ödəyicisinə vergi orqanının rəhbərinin (onun müavininin) qərarına əsasən hər belə ödəmə tapşırığına görə 100 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergi ödəyicisi və vergi orqanlarının hüquq və vəzifələri

## Vergi orqanlarının hüquqları

- 23.1.3-1. Malların, o cümlədən kənd təsərrüfatı məhsullarının topdan satışı ilə məşğul olan ticarət obyektlərində, **bazarlarda nəzarət postlarının qurulması** və bu obyektlərə Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada sənədləşdirilməyən, habelə əmtəə-nəqliyyat qaiməsi olmayan malların gətirilməsinin qarşısının alınması;
- **23.1.6-1. səyyar vergi yoxlamaları zamanı əsas məqsədi vergi üstünlüyü əldə etmək olan vergidən yayınma sxemi aşkar etdikdə faktiki iqtisadi göstərici əsas götürülməklə vergilərin, faizlərin, maliyyə sanksiyalarının və inzibati cərimələrin hesablanmasını təmin etmək və aşkar edilmiş vergidən yayınma sxemlərini dərc etmək** də vergi orqanlarının hüquqları hesab edilir.

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergi öhdəliklərinin yerinə yetirilməsi müddətləri



© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergi öhdəliklərinin yerinə yetirilməsi müddətləri

## Əlavələr

- 85.6.3. Vergi öhdəliklərinin yerinə yetirilməsi müddətləri 85.6-cı maddəsi üzrə müəyyən edilən hallara əlavə olaraq aşağıdakılar əlavə edilmişdir:

- "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq dövlət sifarişlərinin yerinə yetirilməsi ilə əlaqədar olaraq vergi ödəyicisi tərəfindən yerinə yetirilmiş dövlət sifarişi üzrə müvafiq qurum tərəfindən verilmiş sifarişçinin borclu olduğunu təsdiq edən arayış təqdim edildikdə;
- Vergi ödəyicisi tərəfindən yalnız mövsümi xarakterli malların təqdim edilməsi, işlər görülməsi və ya xidmətlər göstərilməsi həyata keçirildikdə.

---

- 85.8. Aşağıdakı hallarda vergi öhdəliyinin yerinə yetirilməsi müddəti uzadıla bilməz:

- vergi ödəyicisinə münasibətdə vergi qanunvericiliyinin pozulması ilə bağlı cinayət işi qaldırıldıqda;
- vergi ödəyicisi riskli vergi ödəyicisi olduqda;
- vergi öhdəliyinin məbləği vergi ödəyicisi tərəfindən məhkəmə və ya inzibati qaydada mübahisələndirildikdə;
- vergi öhdəliyinin məbləği sahibkarlıq subyektlərinin kateqoriyası üzrə müvafiq olaraq bu Məcəlləsinin 85.9-cu maddəsində müəyyən edilmiş məbləğlərin aşağı həddindən az olduqda;
- Məcəllənin 85.6.3-cü və 85.6.4-cü maddələrinə münasibətdə müraciət edən vergi ödəyicisinin vergi orqanında uçotda olduğu müddət 3 ildən az olduqda.

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergi öhdəliklərinin yerinə yetirilməsi müddətləri

## Əlavələr

- Vergi Məcəlləsinin 85.9-cu maddəsinə əsasən vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması üçün vergi ödəyicisi tərəfindən vergi növü (növləri) üzrə vergi orqanına yazılı müraciət təqdim edilməlidir. Mikro və kiçik sahibkarlıq subyekti olan vergi ödəyicisinin borcu 2,000 manatdan 20,000 manatadək, orta sahibkarlıq subyekti olan vergi ödəyicisinin borcu 20,000 min manatdan 100,000 manatadək və iri sahibkarlıq subyektinin borcu 100,000 manatdan 300,000 manatadək olduqda vergi ödəyicisi tərəfindən müraciətə əlavə edilməli sənədlərin siyahısı da əlavə edilir.



© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergi öhdəliklərinin yerinə yetirilməsi müddətləri

## Əlavələr

- 85.10. Məcəllənin 85.6-cı maddəsində nəzərdə tutulmuş əsaslar olduqda, vergi öhdəliklərinin yerinə yetirilməsi müddəti vergi orqanının qərarı ilə vergi ödəyicisinin seçimindən asılı olaraq aşağıdakı qaydada uzadıla bilər:
  - borcun ödənilməsinə 6 aydan çox olmayan müddətə möhlət verilməsi;
  - cari vergilər üzrə borcun ödənilməsinə təqvim ili ərzində 6 aydan çox olmayan müddətə möhlət verilməsi;
  - vergi öhdəliyinin vergi orqanı ilə vergi ödəyicisi arasında razılaşdırılmış qaydada mərhələli şəkildə aylıq ödənişlər formasında yerinə yetirilməsi şərtilə borcun ödənilməsinə 1 ildən çox olmayan müddətə möhlət verilməsi. Bu zaman ödəniş qrafiki vergi orqanı ilə vergi ödəyicisi arasında imzalanmış müvafiq aktla rəsmiləşdirilir.
- 85.11. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müraciətin və digər sənədlərin daxil olduğu tarixdən 30 gün müddətində vergi ödəyicisinin müraciətinə baxır və bu Məcəllənin 85.6-cı maddəsində nəzərdə tutulmuş əsaslar olduğu halda vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması və ya vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılmasından imtina edilməsi barədə qərar qəbul edir.

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergi nəzarəti



© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergi nəzarəti

## Səyyar vergi yoxlaması

- 36.3-1. Vergi ödəyicisində keçirilən səyyar vergi yoxlaması zamanı bu maddə ilə müəyyən olunmuş müddətlər nəzərə alınmaqla yoxlamanın əhatə etdiyi dövr və (və ya) vergi növləri aşağıdakı hallarda artırıla bilər:
  - 36.3-1.1. vergi ödəyicisinin müraciəti əsasında;
  - 36.3-1.2. keçirilən səyyar vergi yoxlamasının əhatə etdiyi dövrdən sonrakı dövrdə vergidən yayınma hallarının olması barədə vergi orqanında mənbəyi bəlli məlumatlar olduqda;
  - 36.3-1.3. cinayət prosesual qanunvericiliyinə uyğun olaraq məhkəmənin və ya hüquq mühafizə orqanlarının vergi yoxlamalarının keçirilməsi barədə müvafiq qərarı olduqda.

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergi nəzarəti

## Kameral vergi yoxlaması

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| • 37.2. Kameral vergi yoxlaması vergi ödəyicisi tərəfindən bu Məcəllənin 72-ci maddəsində nəzərdə tutulmuş vergi bəyannaməsinin vergi orqanına təqdim edildiyi vaxtdan 30 iş günü müddətində keçirilir. Bu müddət başa çatdıqdan sonra həmin bəyannamə, habelə bu Məcəllənin 37.2-1-ci maddəsində göstərilən bildiriş üzrə verilmiş dəqiqləşdirilmiş bəyannamə üzrə yenidən kameral vergi yoxlaması keçirilə bilməz. | • 37.2. Kameral vergi yoxlaması vergi ödəyicisi tərəfindən bu Məcəllənin 72-ci maddəsində nəzərdə tutulmuş vergi bəyannaməsinin**, habelə cari vergi ödəmələrinin hesablanması haqqında arayışın  təqdim edildiyi tarixdən mənfəət və gəlir vergisi bəyannaməsinə (ödəmə mənbəyində tutulan gəlirlər üzrə və xüsusi notariusun gəlir vergisi bəyannaməsi istisna olmaqla) münasibətdə 60 iş günü müddətində, digər bəyannamələrə, habelə cari vergi ödəmələrinin hesablanması haqqında  arayışlara** münasibətdə isə 30 iş günü müddətində keçirilir.  **Xaricdən əldə olunan gəlirlər üzrə xarici dövlətlərin səlahiyyətli orqanlarından müvafiq məlumatlar daxil olduğu halda kameral vergi yoxlaması bu Məcəllənin 85.4-cü maddəsində göstərilən dövr üzrə məlumatlar daxil olduğu tarixdən 30 iş günü müddətində keçirilir.** Bu müddət başa çatdıqdan sonra həmin bəyannamə, **cari vergi ödəmələrinin hesablanması haqqında arayış və ya xaricdən əldə olunan məlumatlar,** habelə bu Məcəllənin 37.2-1-ci maddəsində göstərilən bildiriş üzrə verilmiş dəqiqləşdirilmiş bəyannamə üzrə yenidən kameral vergi yoxlaması keçirilə bilməz. |

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

## Növbədənkənar vergi yoxlaması

- 38.3.9. Aşağıdakı hallarda bu Məcəllənin 85-ci maddəsində göstərilən müddətlərdən asılı olmayaraq əvvəlki səyyar vergi yoxlaması ilə yoxlanılan dövr əhatə edilməklə yuxarı vergi orqanının qərarı əsasında:
  - Vergi yoxlamasının nəticələri ilə razılaşmayan vergi ödəyiciləri növbədənkənar səyyar vergi yoxlamasının keçirilməsini yazılı şəkildə tələb etdikdə;
  - Vergi ödəyicisi tərəfindən səyyar vergi yoxlaması zamanı sənədlər təqdim edilmədikdə və vergi yoxlamasının nəticələrinə görə vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi haqqında vergi orqanının qərarından vergi ödəyicisi tərəfindən sənədlər təqdim edilməklə yuxarı vergi orqanına şikayət verildikdə;
  - Vergi yoxlamasının nəticələrinə görə vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi haqqında vergi orqanının qərarından vergi ödəyicisi tərəfindən səyyar vergi yoxlamasının keçirilməsi zamanı təqdim edilən sənədlərdən fərqli sənədlər təqdim edilməklə yuxarı vergi orqanına şikayət verildikdə.
- Vergi yoxlamasının nəticələri ilə razılaşmayan vergi ödəyiciləri növbədənkənar səyyar vergi yoxlamasının keçirilməsini yazılı şəkildə tələb etdikdə vergi yoxlaması vergi orqanlarının əvvəlki yoxlamanı keçirmiş vəzifəli şəxsləri tərəfindən keçirilə bilməz.

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergi nəzarəti

## Vergi yoxlamasının materiallarına baxılmanın nəticələri üzrə qərarın çıxarılması

- 49.1-2. Bu Məcəllənin 49.1.3-cü maddəsinə müvafiq olaraq təyin edilən yoxlama əvvəlki səyyar vergi yoxlamasının davamı hesab edilir və yalnız 1 (bir) dəfə 60 iş günündən artıq olmamaqla keçirilə bilər.

Əlavə vergi yoxlamasının keçirilməsinin nəticəsi üzrə yenidən əlavə vergi yoxlamasının keçirilməsi barədə qərar qəbul edilə bilməz.



© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergi nəzarəti

## Operativ vergi nəzarəti

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| • 50.1. Operativ vergi nəzarəti sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərin gəlir götürmək üçün istifadə etdikləri, yaxud vergi tutulan obyektlərin və ya əmtəə-material ehtiyatlarının saxlanılması ilə bağlı olan anbar, ticarət və bu qəbildən olan digər binalarında (ərazilərində) (yaşayış binaları (sahələri) istisna olmaqla), nəqliyyat vasitələrində (sahibkarlıq fəaliyyəti üçün istifadə edilməyən şəxsi nəqliyyat vasitələri istisna olmaqla) həyata keçirilən və aşağıdakı məsələləri əhatə edən vergi nəzarəti formasıdır:<br>• 50.1.1. bu Məcəllə ilə müəyyən edilmiş hallarda və qaydada vergi orqanlarında uçota durmayan və ya bu Məcəllənin 221.4.7-ci maddəsinə əsasən "Fərqlənmə nişanı"nı almayan vergi ödəyicilərinin aşkar edilməsi. | • 50.1. Operativ vergi nəzarəti sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərin gəlir götürmək üçün istifadə etdikləri, yaxud vergi tutulan obyektlərin və ya əmtəə-material ehtiyatlarının saxlanılması ilə bağlı olan anbar, ticarət və bu qəbildən olan digər binalarında (ərazilərində) (yaşayış binaları (sahələri) istisna olmaqla), nəqliyyat vasitələrində (sahibkarlıq fəaliyyəti üçün istifadə edilməyən şəxsi nəqliyyat vasitələri istisna olmaqla) həyata keçirilən və aşağıdakı məsələləri əhatə edən vergi nəzarəti formasıdır:<br>• 50.1.1. bu Məcəllə ilə müəyyən edilmiş hallarda və qaydada vergi orqanlarında uçota durmayan, **bu Məcəllənin 33.2-ci maddəsinə uyğun olaraq təsərrüfat subyekti (obyekti) vergi orqanlarında uçotda olmayan** və ya bu Məcəllənin 221.4.7-ci maddəsinə əsasən "Fərqlənmə nişanı"nı almayan vergi ödəyicilərinin aşkar edilməsi. |
| • 50.1.13. malların bu Məcəllənin 58.8-ci maddəsində göstərilən sənədlər əsasında alınmasına, malların elektron qaimə-faktura əsasında təqdim edilməsinə, habelə malların əvvəlcədən sifariş edilmədən təqdim edilməsi üçün malların təsərrüfat subyektindən (obyektindən) nəqliyyat vasitələrinə yüklənməsi üçün təsərrüfatdaxili yerdəyişmə qaimə-fakturasının tərtib edilməsinə nəzarət edilməsi. | • 50.1.13. malların bu Məcəllənin 58.8-ci maddəsində göstərilən sənədlər əsasında alınmasına, malların elektron qaimə-faktura əsasında təqdim edilməsinə, **topdansatış və ticarət obyektlərindən,** habelə malların **vergi ödəyicisinin bir** təsərrüfat subyektindən (obyektindən) **digər təsərrüfat subyektinə (obyektinə) göndərilməsi zamanı bu Məcəlləsinin 71-1.5.10-cu maddəsində nəzərdə tutulan növdə elektron** qaimə-fakturanın tərtib edilməsinə nəzarət edilməsi. |

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergi nəzarəti

## Operativ vergi nəzarəti

- 50.1.13-1. bu Məcəllənin 16.1.11-11-ci maddəsinə əsasən vergi ödəyicisinin idxal olunmuş mallarının saxlanıldığı (boşaldıldığı) yerə baxışın keçirilməsi



© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergitutma obyekti



© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Vergitutma obyekti

## Vergitutma obyektinin ayrı-ayrı hallarda müəyyən edilməsi qaydaları

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| • 67.1. Bu Məcəllənin 37.4-cü və 50.1.1-ci maddələrində göstərilən hallarda, habelə səyyar vergi yoxlamasının aparılması zamanı sənədlər təqdim edilmədikdə, ərazi və ya binalara (yaşayış binası (sahəsi) istisna olmaqla) daxil olmağa icazə verilmədikdə, mühasibat uçotunu aparmadıqda və ya mühasibat uçotunu müəyyən edilmiş qaydada aparmadıqda, uçotu və hesabat sənədləri məhv olunduqda (itirildikdə), həmçinin vergitutma obyektinin müəyyənləşdirilməsi hər hansı başqa səbəblərdən mümkün olmadıqda, vergi orqanlarının ödənilməli olan verginin məbləğini aşağıda göstərilən əlaqəli məlumatlardan istifadə etməklə hesablamaq hüququ vardır:<br>• 67.1.9. vergi orqanının əldə etdiyi mənbəyi bəlli olan hər hansı digər məlumatlar. | • 67.1. Bu Məcəllənin 37.4-cü və 50.1.1-ci maddələrində göstərilən hallarda, habelə səyyar vergi yoxlamasının aparılması zamanı sənədlər təqdim edilmədikdə, ərazi və ya binalara (yaşayış binası (sahəsi) istisna olmaqla) daxil olmağa icazə verilmədikdə, mühasibat uçotunu aparmadıqda və ya mühasibat uçotunu müəyyən edilmiş qaydada aparmadıqda, uçotu və hesabat sənədləri məhv olunduqda (itirildikdə), həmçinin vergitutma obyektinin müəyyənləşdirilməsi hər hansı başqa səbəblərdən mümkün olmadıqda, vergi orqanlarının ödənilməli olan verginin məbləğini aşağıda göstərilən əlaqəli məlumatlardan istifadə etməklə hesablamaq hüququ vardır:<br>• 67.1.9. vergi orqanının əldə etdiyi mənbəyi bəlli olan hər hansı digər məlumatlar, **o cümlədən vergi orqanı tərəfindən həyata keçirilən vergi nəzarəti tədbirləri zamanı əldə edilmiş vergi ödəyicisinin sahibkarlıq fəaliyyəti ilə bağlı qanunla nəzərdə tutulmuş qaydada rəsmiləşdirilməyən əməliyyatlar üzrə məlumatlar.** |

## Əlavələr

- 67.17. Bu maddədə sadalanan vergitutma obyektinin müəyyən edilməsi ilə bağlı ayrı-ayrı halları tənzimləyən maddələr bu maddədə sıra üzrə ardıcıllıq gözlənilmədən tətbiq edilir.

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Maliyyə sanksiyaları



© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Maliyyə sanksiyaları

## Əlavələr

- 58.2.-1. Məcəllənin 33.2-ci maddəsinə uyğun olaraq təsərrüfat subyektinin (obyektinin) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunmuş qaydada vergi orqanlarında uçota alınmamasına və (və ya) təsərrüfat subyektinin (obyektinin) sahəsi barədə təhrif olunmuş məlumatın verilməsinə görə mikro sahibkarlıq subyektlərinə, qeyri-kommersiya təşkilatlarına və qeyri-sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərə münasibətdə **40 manat** məbləğində, digər şəxslərə münasibətdə **400 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir.

- 58.8.3. Səyyar vergi yoxlaması və operativ vergi nəzarəti zamanı Məcəllədə nəzərdə tutulmuş qaydada gəlirlərin və xərclərin uçotu aparılmadıqda – alıcıya rəsmiləşdirilməyən xərclərin **20 faizi** miqdarında maliyyə sanksiyası tətbiq olunacaqdır.

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Maliyyə sanksiyaları

## Əlavələr

- 58.13. Bu Məcəlləyə əsasən elektron qaimə-faktura təqdim edilməli olduğu halda malların elektron qaimə-faktura verilmədən təqdim edilməsinə, **topdansatış ticarət və istehsal obyektlərindən, habelə anbarlardan malların pərakəndə satış qaydasında rəsmiləşdirməklə təqdim edilməsinə,** habelə malların əvvəlcədən sifariş edilmədən təqdim edilməsi üçün malların təsərrüfat subyektindən (obyektindən) nəqliyyat vasitələrinə yüklənməsi üçün təsərrüfatdaxili yerdəyişmə qaimə-fakturasının tərtib edilmədən verilməsinə görə – malları təqdim edən şəxsə təqvim ili ərzində belə hala birinci dəfə yol verdikdə təqdim edilmiş malların satış qiymətinin 10 faizi, ikinci dəfə yol verdikdə 20 faizi, üç və daha çox dəfə yol verdikdə 40 faizi miqdarında maliyyə sanksiyası tətbiq ediləcəkdir.

- 58.16. Alışı Məcəllə ilə müəyyən edilmiş qaydada rəsmiləşdirilməyən malların təqdim edilməsinə dair tərtib edilmiş elektron qaimə-fakturalarda mallar barədə məlumatlar, o cümlədən malın adı dəqiq göstərilmədikdə həmin malların alışı ilə bağlı çəkilən xərclərin dəyəri təqdim edilən malların dəyərinin **1,2-yə bölünməsi** yolu ilə alınan dəyər kimi müəyyən ediləcəkdir.

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Maliyyə sanksiyaları

## Kredit təşkilatlarına və maliyyə institutlarına tətbiq edilən maliyyə sanksiyaları

- 60.1.2. Sahibkarlıq fəaliyyətini göstərən hüquqi və fiziki şəxslərin milli və ya xarici valyutada cari və ya digər hesablarında vəsait olduqda, onun vergilərin ödənilməsinə dair ödəmə tapşırıqlarının və vergi orqanının sərəncamlarının icra edilməməsinə görə:
  - Vergi ödəyicisinin vergilərin ödənilməsinə dair tapşırıqlarının vaxtında icra edilməməsinə, habelə Mülki Məcəllədə nəzərdə tutulmuş ödənişlərin növbəliyi pozulmaqla icra edilməsinə görə - vaxtında icra edilməyən ödəmə tapşırıqlarında göstərilən məbləğlərin və ya növbəliyi pozulmaqla aparılan əməliyyatların məbləğlərinin 50 faizi;
  - Vergilər üzrə borcların, faizlərin və maliyyə sanksiyalarının vergi ödəyicisinin hesabından tutulması haqqında vergi orqanının sərəncamlarının daxil olduğu gündən **3 iş günü müddətində** icra edilməməsinə, habelə Mülki Məcəllədə nəzərdə tutulmuş ödənişlərin növbəliyi pozulmaqla icra edilməsinə görə - vergi orqanının icra edilməyən sərəncamlarında göstərilən məbləğlərin və ya növbəliyi pozulmaqla aparılan əməliyyatların məbləğlərinin 50 faizi;
  - Bu Məcəllənin 65.2-ci maddəsi ilə müəyyən edilən həcmdə pul vəsaitinin məxaric əməliyyatları üzrə dondurulması haqqında vergi orqanlarının sərəncamlarının daxil olduğu **vaxt** icra edilməməsinə görə - vergi orqanının icra edilməyən sərəncamında göstərilən məbləğlərin 50 faizi;
  - Bu Məcəllənin 65.7-1-ci maddəsinin tələblərinin pozulmasına görə - vergi orqanının sərəncamında göstərilən məbləğlərin 50 faizi.
- Bu Məcəllənin 60.1.2.1-ci və 60.1.2.2-ci maddələrində növbəliyi pozulmaqla aparılan əməliyyatların məbləğlərinə əsasən tətbiq edilən maliyyə sanksiyasının məbləği həmin ödəmə tapşırıqlarında və ya vergi orqanının sərəncamlarında göstərilən məbləğin 50 faizindən çox olmamalıdır.

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Elektron qaimə-faktura



© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Elektron qaimə-faktura

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| • 71-1.5. Vergi ödəyicisi tərəfindən aparılan əməliyyatlar zamanı əməliyyatın xarakterindən asılı olaraq aşağıdakı növdə elektron qaimə-faktura verilir:<br>• 71-1.5.7. malların emala verilməsi barədə; | • 71-1.5. Vergi ödəyicisi tərəfindən aparılan əməliyyatlar zamanı əməliyyatın xarakterindən asılı olaraq aşağıdakı növdə elektron qaimə-faktura verilir:<br>• 71-1.5.7. malların emala, **yaxud saxlamaya** verilməsi barədə; |
| • 71-1.5.8. emal prosesi keçmiş malların qaytarılması barədə. | • 71-1.5.8. emal prosesi keçmiş, **yaxud saxlamaya verilmiş** malların qaytarılması barədə.<br>Aksizli malların (neft məhsulları istisna olmaqla) təsərrüfatdaxili yerdəyişməsi barədə elektron qaimə-faktura tərtib edilməsi tələbi 2022-ci 1 iyul tarixindən tətbiq ediləcəkdir. |

## Əlavələr

- 71-1.5.10. aksizli malların (neft məhsulları istisna olmaqla) təsərrüfatdaxili yerdəyişməsi barədə;
- 75-1.5.11. ixrac qeydi ilə satış barədə də vergi ödəyicisi elektron qaimə-faktura təqdim etməlidir.

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Elektron qaimə-faktura

## Əlavələr

- 71-1.7. Agent (komisyonçu) tərəfindən malların (işlərin, xidmətlərin) subagentə verilməsi, habelə subagent tərəfindən  malların (işlərin, xidmətlərin) alıcıya təqdim edilməsi zamanı elektron qaimə-faktura tərtib edilməlidir və müvafiq olaraq əməliyyatın subagentə ötürülməsi, eləcə də subagent tərəfindən aparılması ilə bağlı qeyd aparılmalıdır.

- 71-1.8. Aksizli malların istehsalçısı tərəfindən aksizli malların istehsal binasının hüdudlarından ona məxsus digər təsərrüfat subyektlərinə (obyektlərinə), yaxud əvvəlcədən sifariş edilməyən əməliyyatlar üzrə nəqliyyat vasitələrinə buraxılışı barədə də elektron qaimə-faktura verilməlidir. Bu cür elektron qaimə-fakturalar aksizli malların istehsalçıları və ya idxalçıları tərəfindən tərtib edilməlidir.

- 58.13-1. Nəzərdə tutulan növdə elektron qaimə-faktura tərtib edilmədən malların bir təsərrüfat subyektindən (obyektindən) digər təsərrüfat subyektinə (obyektinə) göndərilməsinə görə vergi ödəyicisinə elektron qaimə-faktura ilə rəsmiləşdirilməyən hər bir belə əməliyyat üçün 100 manat miqdarında maliyyə sanksiyası tətbiq ediləcəkdir. Sənədlər həmin maddədə nəzərdə tutulan müddətlər nəzərə alınmaqla, vergi nəzarəti tədbiri başlandıqdan sonra təqdim (tərtib) edildiyi halda həmin sənədlər nəzərə alınmır və bu Məcəllənin 58.8.2-ci, 58.13-cü və 58.13-1-ci maddələrində nəzərdə tutulan maliyyə sanksiyaları tətbiq edilir.

- 16.1.11-6.4 lotereya biletlərinin, idman mərc oyunları biletlərinin və elektron mərc oyunu biletlərinin satışı, habelə lotereya biletlərinin agent qaydasında satışı ilə bağlı xidmətlərin göstərilməsi zamanı elektron qaimə-faktura buraxmaq tələb olunmayacaq.

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Elektron qaimə-faktura

## Elektron əmtəə-nəqliyyat qaiməsi və yük avtonəqliyyatı üçün elektron yol vərəqi

- 71-3.1. Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq əmtəə təyinatlı yüklərin daşınmasına görə elektron əmtəə-nəqliyyat qaiməsi və yük avtonəqliyyatı üçün elektron yol vərəqi tərtib edilməlidir.

- 71-3.2. Elektron əmtəə-nəqliyyat qaiməsinin və yük avtonəqliyyatı üçün elektron yol vərəqinin forması, tətbiqi, uçotu və istifadəsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.



© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Mənfəət vergisi



# Mənfəət vergisi

## Əlavələr

- Mənfəət vergi ilə bağlı Qanunda yeni azadolmalar müəyyən edilir və bəzi azadolmalarla bağlı istisnalar tətbiq edilir:
  - Vəkil qurumunun tərkibində fəaliyyət göstərən vəkillər tərəfindən göstərilən, yaxud göstərilməsi nəzərdə tutulan vəkillik fəaliyyəti ilə bağlı vəkil qurumuna daxil olan ödənişlərin vəkillərə ödənilən, yaxud ödənilməsi nəzər də tutulan hissəsi qurumun vergi tutulan gəlirlərinə aid edilmir.
  - **Publik hüquqi şəxslər** tərəfindən sahibkarlıq fəaliyyətindən əlavə ödənişli xidmətlərin göstərilməsindən əldə olunan gəlirlər və faiz gəlirləri vergi tutulan gəlirə aid edilir.
  - 106.1.5. **Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) nizamnaməsinə uyğun olaraq ayrılmış güzəştli kreditlər üzrə müvəkkil kredit təşkilatları tərəfindən Fonda ödənilən faiz gəlirləri** də vergidən azad edilir.
  - 106.18. Paylarının (səhmlərinin) 51 və daha artıq faizi birbaşa və ya dolayısı ilə dövlətə məxsus olan hüquqi şəxslər və dövlətin adından yaradılan publik hüquqi şəxslər istisna olmaqla, vergi ödəyicisinin hesabat ilinin mənfəətinin 10 faizindən çox olmayan hissəsinin müəyyən edilmiş **ictimai və sosial məqsədlər üçün yaradılmış fondlara** köçürülən hissəsi 2021-ci il 1 yanvar tarixdən 8 il müddətinə vergidən azad edilir.
  - 106.1.29. lotereya biletlərinin satıcısı ilə bağlanmış müqavilə əsasında və ya onun tapşırığı əsasında lotereya biletlərinin bütün mərhələlərdə agent qaydasında satışının həyata keçirilməsi üzrə göstərilən xidmətlərdən əldə olunan gəlirlər mənfəət vergisindən azaddır.
  - 144.1.4. hüquqi və fiziki şəxslər tərəfindən daşınmaz əmlak, habelə əmlak kompleksi şəklində müəssisələrin **dövlət orqanlarına (qurumlarına) əvəzsiz olaraq verilməsi** gəlir hesab edilmir.

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Mənfəət vergisi

## Əlavələr

- 108.4. Azərbaycan Respublikasının ərazisi daxilində ezamiyyələr üzrə ezamiyyə xərcləri müvafiq təsdiqedici sənədlər əsasında (gündəlik xərclər istisna olmaqla) Nazirlər Kabinetinin müəyyənləşdirdiyi norma daxilində gəlirdən çıxılan xərclərə aid edilir. Azərbaycan Respublikasının ərazisində ezamiyyə zamanı mehmanxana xərcləri barədə müvafiq təsdiqedici sənədlər təqdim edilmədiyi hallarda ezamiyyə xərclərinin 1 günlük normasının **mehmanxana xərcləri üçün müəyyən edilmiş hissəsinin 50 faizi gəlirdən çıxıla bilər**.

- 108.5. Qanunvericiliklə **müəyyən edilmiş təbii itki normaları daxilində zayolmadan əmələgələn itkilər, təbii itki normaları daxilində xarabolmalar və bu kimi əskikgəlmələr vergitutma məqsədləri üçün gəlirdən çıxılır**.

- 130.7. **banklar və kredit təşkilatları tərəfindən Vətən müharibəsində şəhid olmuş və ya yaralanmış şəxslərin 2021-ci il 1 yanvar tarixinədək alınmış kreditlər** üzrə həmin tarixədək ödənilməyən borclarına görə hesablanmış faizlərin silinməsi bankların və kredit təşkilatlarının vergitutulan gəlirlərinə aid edilmir. Bu maddə ilə müəyyən edilmiş silinən borcların əsas məbləği üzrə yaradılmış ehtiyat məbləğləri gəlirdən çıxılan xərclərə aid edilir - 2020-ci il 27 sentyabr tarixindən qüvvəyə minəcəkdir.

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Mənfəət vergisi

## Əlavələr – İcarədə olan əsas vəsaitlərin təmiri

- 115.6. **İcarəyə götürülmüş əsas vəsaitlər icarəçinin balansında uçota alınmadıqda** və ya təmir işləri icarəyə verənin hesabına aparıldıqda, yaxud icarəçinin hesabına aparılaraq, icarə haqqı ilə əvəzləşdirildikdə bu Məcəllənin 115.4-cü maddəsinin müddəaları icarəçiyə tətbiq edilmir.

- 115.6-1. **İcarəçinin balansında uçota alınmayan** əsas vəsaitlərin təmirinə çəkilən və icarə haqqı ilə əvəzləşdirilməyən, yaxud icarəyə götürən tərəfindən əvəzi ödənilməyən xərclər icarəçi tərəfindən kapitallaşdırılaraq təmir edilən əsas vəsaitin aid olduğu kateqoriya üzrə Məcəllənin 114.3-cü maddəsində müəyyən edilmiş amortizasiya dərəcəsi ilə amortizasiya olunmalıdır.



© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Mənfəət vergisi

## Gəlirin və xərcin uçotu qaydası

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| • 130.4. Vergi ödəyicisi vergi ili ərzində eyni metodu tətbiq etmək şərti ilə vergilərin uçotunu kassa metodu və ya hesablamalar metodu ilə apara bilər. | • **Mikro sahibkarlıq subyektləri öz seçimlərindən asılı olaraq gəlirlərin və xərclərin uçotunu kassa metodu və ya hesablama metodu ilə, kiçik, orta və iri sahibkarlıq subyektləri isə hesablama metodu ilə aparır.**<br><br>Orta və iri sahibkarlıq subyektlərinə münasibətdə 1 yanvar 2022-ci il tarixdən, kiçik sahibkarlıq subyektlərinə münasibətdə isə 1 yanvar 2023-cü il tarixdən qüvvəyə minir. |

- **Əvvəlki vergi ilində vergi tutulan mənfəəti olmayan** vergi ödəyiciləri növbəti ildə **cari vergi ödəmələrini** yalnız rüblər üzrə **artan yekunla** hesablanmış mənfəətdən müvafiq vergi dərəcələrinə uyğun olaraq hesablamalıdırlar.

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Ödəmə mənbəyində vergi



© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Ödəmə mənbəyində vergi

## Dəyişikliklər

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| 125.1.4. Azərbaycan Respublikası ilə digər dövlətlər arasında beynəlxalq rabitə və ya beynəlxalq daşımalar həyata keçirilərkən rabitə və ya nəqliyyat xidmətləri üçün rezident müəssisəsinin və ya sahibkarın ödəmələri – 6 faiz | 125.1.4. Azərbaycan Respublikası ilə digər dövlətlər arasında beynəlxalq rabitə və ya beynəlxalq daşımalar həyata keçirilərkən rabitə və ya nəqliyyat xidmətləri üçün rezident müəssisəsinin müəssisənin və ya sahibkarın ödəmələri - 6 faiz; **Azərbaycan Respublikasının hüdudlarından kənarda digər dövlətlərdəki təyinat (göndərilmə) məntəqələri arasında, habelə Azərbaycan Respublikasının ərazisindən tranzit qaydada həyata keçirilən daşımalara görə rezident müəssisənin və ya sahibkarın ödəmələri bu maddə üzrə vergitutma obyekti deyildir.** |

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Ödəmə mənbəyindən tutulan vergi

## Əlavələr

- 150.1.7. Vergi ödəyicisi kimi vergi orqanlarında uçota alınmayan, VÖEN təqdim etməyən fiziki şəxslərin göstərdiyi xidmətlərə (işlərə) görə həmin fiziki şəxslərə haqq ödəyən, **habelə muzdlu işçi kimi cəlb etmədiyi fiziki şəxslərə maddi yardım, mükafat, təqaüd verən** hüquqi şəxslər və ya fərdi sahibkarlar bu ödənişlərdən ÖMV tutmalıdırlar.
- Bu gəlirlər qeyri-sahibkarlıq fəaliyyətindən gəlir kimi 14% dərəcə ilə ödəmə mənbəyində tutularaq vergiyə cəlb edilir.

- 101.6. Vergi ödəyicisi kimi vergi orqanında uçotda olmayan fiziki şəxslərin "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununun 3.5-ci maddəsində göstərilən malların təqdim edilməsindən əldə edilən gəlirlərindən xərclər çıxılmadan ~~2~~ **5 faiz** dərəcə ilə vergi tutulur.

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Ödəmə mənbəyindən tutulan vergi

## Əlavələr

- 13.2.16.14-1. Aşağıdakı hallarda güzəştli vergi tutulan ölkələrə və ya ərazilərə aparılan ödənişlər bu maddənin məqsədləri üçün Azərbaycan mənbəyindən gəlirlərə aid edilmir:
  - Alınmış borclar üzrə borcun əsas məbləği qaytarıldıqda (faizlər istisna olmaqla);
  - Rezident banklar tərəfindən açılan müxbir hesablara ödənişlər aparıldıqda;
  - Ödənilən vəsaitlər ödəniş tarixindən hesaba qaytarıldığı gün daxil olmaqla 1 il müddətində güzəştli vergi tutulan ölkədəki hesabdan ödəyən şəxsin bank hesabına qaytarıldıqda;
  - Vergi orqanında uçotda olmayan fiziki şəxslər tərəfindən elektron ticarət qaydasında xidmətlər alındıqda;
  - Vergi orqanında uçotda olmayan fiziki şəxslər tərəfindən güzəştli vergi tutulan ölkələrdə və ya ərazilərdə şəxsi istehlak məqsədilə mallar (işlər, xidmətlər), o cümlədən daşınar və ya daşınmaz əmlakların alışı ilə bağlı Azərbaycan Respublikasının hüdudlarından kənarda güzəştli vergi tutulan ölkələrdə və ya ərazilərdə ödənişlər aparıldıqda;
  - Borc qiymətli kağızlarının əldə edilməsi ilə bağlı ödənişlər aparıldıqda;
  - Azərbaycan Respublikasına qoyulmuş investisiyalar və Azərbaycan Respublikasındakı maliyyə institutlarına yerləşdirilmiş depozitlər üzrə faiz və dividend gəlirləri ödənildikdə;
  - Güzəştli vergi tutulan ölkələrin və ya ərazilərin rezidentlərinin əməkhaqqı və pensiyaları ödənildikdə;
  - Səlahiyyətli dövlət orqanlarına rüsumlar və digər ödənişlər ödənildikdə, icazələrin və sertifikatların alınması ilə bağlı ödənişlər aparıldıqda.

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Ödəmə mənbəyindən tutulan vergi

## Əlavələr

- 125-1. Məcəllənin digər müddəalarından asılı olmayaraq, bu Məcəllənin 13.2.16.14-1-ci maddəsində göstərilən ödəmələrdən ödəmə mənbəyində 10 faiz dərəcə ilə vergi tutulması nəzərdə tutulur.

## Əlavələr

- 150.1. Aşağıdakı şəxslər (vergi agentləri) ödəmə mənbəyində vergini tutmağa borcludurlar:
  - Vergi orqanında uçotda olmayan fiziki şəxslər istisna olmaqla, bu Məcəllənin 13.2.16.14-1-ci maddəsində göstərilən ödənişləri həyata keçirən şəxslər;
  - Vergi orqanında uçotda olmayan fiziki şəxslərin bu Məcəllənin 13.2.16.14-1-ci maddəsində göstərilən ödənişlərini həyata keçirən yerli bank, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru.



© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# MÖMV



© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

## Vergi azadolmaları

- 102.1.3.
  - şəhid olmuş şəxslərin ailə üzvlərinin, Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda aparılan hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçuların və mülki şəxslərin əldə etdiyi **maddi yardımın 20,000 manatadək** olan hissəsi;
  - Ölkə daxilində müalicə haqlarını, o cümlədən **cərrahiyyə əməliyyatının haqqını** ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin **10,000 (əvvəl 1,000)** manatadək olan hissəsi, xaricdə müalicə haqlarını, **o cümlədən cərrahiyyə əməliyyatının haqqını** ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin **50,000 (əvvəl 2,000)** manatadək olan hissəsi fiziki şəxslərin gəlir vergisindən azaddır.

- 102.1.25-1. Vətən müharibəsində şəhid olmuş və ya yaralanmış şəxslərin **banklara və digər kredit təşkilatlarına olan borclarının silinməsi**ndən əldə olunan gəlir vergidən azad edilir.

- 102.1.26 Lotereya təşkilatçısı tərəfindən keçirilən lotereyalardan və idman mərc oyunları operatoru tərəfindən keçirilən idman mərc oyunlarından pul şəklində əldə edilən **500 manatadək uduşlar**;
- 102.1.36 Lotereya biletlərinin satıcısı ilə bağlanmış müqavilə əsasında və ya onun tapşırığı əsasında **lotereya biletlərinin bütün mərhələlərdə agent qaydasında satışının** həyata keçirilməsi üzrə göstərilən xidmətlərdən əldə olunan gəlirlər gəlir vergisindən azad edilir.

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Əlavə dəyər vergisi



© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Əlavə dəyər vergisi

## Dəyişikliklər

- 159.1. 2022-ci ilin 1 yanvar tarixindən **3** il müddətində **kənd təsərrüfatı məhsullarının (yerli və xarici mənşəli) topdan və pərakəndə** satışı zamanı tətbiq edilən **ticarət əlavəsi** vergitutma obyektidir.

- 159.5. Qanunvericiliklə müəyyən edilmiş **təbii itki normaları** daxilində zayolmadan əmələgələn itkilər, təbii itki normaları daxilində xarabolmalar və bu kimi əskikgəlmələr artıq **ƏDV məqsədləri üçün vergi tutulan əməliyyat sayılmır.**

- 160.4. hüquqi və fiziki şəxslər tərəfindən **daşınmaz əmlakların**, habelə əmlak kompleksi şəklində **müəssisələrin dövlət orqanlarına (qurumlarına) əvəzsiz olaraq verilməsi** vergi tutulan əməliyyat sayılmır.

- 164.1.7. **kitabların** (elektron kitablar istisna olmaqla), habelə **dərslik komplektlərinin idxalı və satışı**, həmin malların (məhsulların) istehsalı (nəşri) ilə bağlı rulon və ya vərəqə şəklində kağızın idxalı və satışı artıq **ƏDV məqsədləri üçün vergi tutulan əməliyyat sayılmır.**

- 164.1.8. kitabların (o cümlədən elektron kitabların), habelə dərslik komplektlərinin istehsalı ilə bağlı **redaksiya, nəşriyyat və poliqrafiya fəaliyyəti** (reklam xidmətləri istisna olmaqla) artıq **ƏDV məqsədləri üçün vergi tutulan əməliyyat sayılmır.**

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Əlavə dəyər vergisi

## Vergi ödəməkdən azad etmə

- 164.1.34-1. **kənd təsərrüfatı texnikalarının** mülkiyyət hüququnun keçməməsi şərtilə kənd təsərrüfatı **istehsalçılarına lizinqə (icarəyə)** verilməsi;
- 164.1.34-2. kənd təsərrüfatı məhsullarının istehsalçılarına **aqrotexniki** xidmətlərin göstərilməsi;
- 164.1.41. yalnız elektrik mühərriki ilə işləyən avtomobillərin idxalı və **satışı;**
- 164.1.41-1. istehsal tarixi 3 ildən və mühərrikinin həcmi 2500 kubsantimetrdən çox olmayan **hibrid avtomobillərin idxalı və satışı** - 2022-ci il yanvarın 1-dən 3 il müddətinə;
- 164.1.41-2. elektrik mühərriki ilə işləyən avtomobillər üçün ikinci və üçüncü səviyyə **elektrik enerji doldurucularının idxalı** – 2022-ci il yanvarın 1-dən 3 il müddətinə;
- 164.1.57. lotereya biletlərinin satıcısı ilə bağlanmış müqavilə əsasında və ya onun tapşırığı əsasında **lotereya biletlərinin** bütün mərhələlərdə **agent qaydasında satışının** həyata keçirilməsi üzrə xidmətlərin göstərilməsi;
- 165.1.4. beynəlxalq və tranzit yük daşınması ilə bağlı **ekspeditor** xidmətlərinin göstərilməsi ƏDV-dən azad olunacaqdır.

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Əlavə dəyər vergisi

## Dəyişikliklər

- 165.5. Fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində pərakəndə ticarət və ya ictimai iaşə fəaliyyəti göstərən şəxslərdən alınmış mallara görə ödənilmiş ƏDV-nin qaytarılması zamanı neft və qaz məhsulları ilə yanaşı, **avtomobillər, alkoqollu içkilər və tütün məmulatlarının alınması zamanı ödənilən ƏDV artıq geri alına bilinməyəcəkdir.**

- 165.5. Fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində **tibb müəssisələri tərəfindən göstərilən tibbi xidmətlərə görə ödənilmiş ƏDV qaytarılır.**

- 165.6. Fiziki şəxs olan istehlakçılar eyni binadan cəmi sahəsi **1,000 kvadratmetrdən (500 kvadratmetr yaşayış və 500 kvadratmetr qeyri-yaşayış sahəsindən)** artıq olan yaşayış və qeyri-yaşayış sahələrini aldıqda, bu maddə ilə müəyyən edilmiş ƏDV-nin qaytarılması alınmış yaşayış və qeyri-yaşayış sahələrinin 1,000 kvadratmetr (500 kvadratmetr yaşayış və 500 kvadratmetr qeyri-yaşayış sahəsi) hissəsinə mütənasib ödənilmiş ƏDV-yə tətbiq edilir.

- 168.1. Bu fəslin məqsədləri üçün işlərin görüldüyü və ya xidmətlərin göstərildiyi yer aşağıdakılar sayılır:
- 168.1.5. işlərin və ya xidmətlərin alıcısının yerləşdiyi və ya qeydiyyatda olduğu, təsis edildiyi, işlər və ya xidmətlər alıcının daimi nümayəndəliyi ilə bilavasitə bağlı olduğu halda həmin daimi nümayəndəliyin olduğu yer. Bu maddənin müddəaları aşağıdakı xidmətlərə tətbiq edilir:
  - patentlərin, lisenziyaların, ticarət markalarının, müəlliflik və digər analoji hüquqların mülkiyyətə verilməsi və ya güzəşt edilməsi, **o cümlədən istifadəyə verilməsi**

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Əlavə dəyər vergisi

## Dəyişiklik

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| • 175.1. Bu maddədə başqa hallar nəzərdə tutulmamışdırsa, ƏDV tutulan əməliyyatlar üçün malların (işlərin, xidmətlərin) alışı zamanı ödənilmiş ƏDV məbləği əməliyyatın dəyəri **bank hesabına**, ƏDV məbləği ƏDV-nin depozit hesabına ödənildikdə əvəzləşdirilir. | • 175.1. Bu maddədə başqa hallar nəzərdə tutulmamışdırsa, ƏDV tutulan əməliyyatlar üçün malların (işlərin, xidmətlərin) alışı zamanı ödənilmiş ƏDV məbləği əməliyyatın dəyəri **alıcının bank hesabından həmin malları (işləri, xidmətləri) təqdim edən şəxsin bank hesabına**, ƏDV məbləği ƏDV-nin depozit hesabına ödənildikdə əvəzləşdirilir. |

## Əlavələr

- 175.10. **Müvəqqəti idxal** şəklində Azərbaycan Respublikası ərazisinə buraxılan və müvəqqəti idxal xüsusi gömrük proseduru altında yerləşdirilmiş mallar **sonradan sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru altında yerləşdirildiyi halda** idxal əməliyyatı üzrə ödənilmiş ƏDV məbləğləri malların **sərbəst dövriyyəyə buraxıldığı hesabat ayında əvəzləşdirilir**.

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Aksiz vergisi



© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Aksiz vergisi

## Dəyişikliklər

- 186-1. Aksiz hesablanan **dövriyyənin dəqiqləşdirilməsi**:
  - Aksizli malların istehsalçısı tərəfindən malların istehsal binasının hüdudlarından kənara buraxılmasına görə vergi hesablanmışdırsa, həmin malların xarab olması, yaxud istifadə müddətinin bitməsi və ya digər  səbəblərdən geri qaytarılması zamanı hesablanmış aksiz malların qaytarıldığı hesabat dövründə azaldılır.
  - Aksizli malların istehsalçısı tərəfindən malların istehsal binasının hüdudlarından kənara özünə məxsus obyektlərə buraxılmasından sonra həmin malların xarab olması, yaxud istifadə müddətinin bitməsi səbəbindən geri qaytarılması zamanı vergi ödəyicisi həmin malların aktlaşdırılması və hesablanmış verginin azaldılması üçün vergi orqanına müraciət edir. Müraciət edilmə tarixindən 5 iş günü ərzində vergi orqanının məsul şəxslərinin iştirakı ilə həmin mallar aktlaşdırılır.
  - Xarab olmuş, yaxud istifadə müddəti bitmiş məhsullara görə aksizin azaldılması müvafiq aktın tərtib edildiyi hesabat dövründə həyata keçirilir və vergi hesabatı təqdim edilərkən tərtib edilən akt vergi orqanına təqdim edilir.  Xarab olmuş, yaxud istifadə müddəti bitmiş məhsullar məhv edildikdə həmin məhsulların istehsalı zamanı əvəzləşdirilmiş aksizin büdcəyə hesablanması həyata keçirilir.

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Aksiz vergisi

## Dəyişikliklər

- 190.1. Aşağıdakı məhsullar aksizli mallara aid edilir:
  - Tütün əvəzləyiciləri - hər kiloqramına 30,0 manat
  - Birdəfəlik istifadə üçün elektron siqaret, qəlyan və onların əvəzediciləri - hər bir ədədinə 0.25 manat

- 190.4.1-4. Azərbaycan Respublikasına idxal olunan minik avtomobillərinin istehsal tarixi 7 ildən artıq olduqda, aksiz bu Məcəllənin 190.4.1-ci və 190.4.1-3-cü maddələrinə əsasən hesablanmiş məbləğə benzin mühərrikli minik avtomobillərinə 1.2, dizel mühərrikli minik avtomobillərinə isə 1.5 yüksəldici əmsal tətbiq etməklə hesablanır.

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Aksiz vergisi

| Aksizli məhsulun adı | Hazırda qüvvədə olan | Yeni redaksiya |
| --- | --- | --- |
| • içməli spirt (o cümlədən tərkibində 80 faizdən az spirt olmayan denaturlaşdırılmamış etil spirti; tərkibində 80 faizdən az spirt olan denaturlaşdırılmamış etil spirti) | • hər litrinə - 3.2 manat | • hər litrinə - 4 manat |
| • araq (vodka), tündləşdirilmiş içkilər və tündləşdirilmiş içki materialları, likyor və likyor məmulatları | • hər litrinə - 3.2 manat | • hər litrinə - 4 manat |
| • konyak və konyak materialları | • hər litrinə - 3.2 manat | • hər litrinə - 4 manat |
| • tütündən hazırlanan siqaretlər və onun əvəzediciləri | • 1000 ədədinə 35.0 manat | • 1000 ədədinə 38.5 manat |
| • qızdırılma nəticəsində istehlak edilən (buxar) tütün və tütün məhsulları | • 1000 ədədinə 12.9 manat | • 1000 ədədinə 14 manat |

| Vergitutma obyektinin adı | Aksizin dərəcəsi |
| --- | --- |
| • mühərrikin həcmi 3000-dən 4000 kubsantimetrədək olduqda | • 5,600 manat + mühərrikin həcminin 3001-4000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə - **15 (əvvəl 13) manat** |
| • mühərrikin həcmi 5000 kubsantimetrədək olduqda | • **20,600 (əvvəl 18,600) manat** + mühərrikin həcminin 4001-5000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə - **40 (əvvəl 35) manat** |
| • mühərrikin həcmi 5000 kubsantimetrdən çox olduqda | • **60,600 (əvvəl 53,600) manat** + mühərrikin həcminin 5000 kubsantimetrdən çox hissəsi üçün hər kubsantimetrə - **80 (əvvəl 70) manat** |

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Əmlak vergisi



© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Əmlak vergisi



## Güzəştlər və azadolmalar

- 197.1.3. Müəssisələrlə yanaşı **fərdi sahibkarlar** da əsas vəsaitlərin bu Məcəllənin 202-ci maddəsinə uyğun olaraq müəyyənləşdirilən dəyərindən 1 faiz dərəcəsi ilə əmlak vergisini müəssisələr kimi ödəyəcək.
- Vergi Məcəlləsinin əmlak vergisinin vergitutma obyekti və hesablanması qaydaları ilə bağlı müddəalarında "əmlak", "obyekt" sözləri çıxarılaraq "əsas vəsait" ifadəsi ilə əvəzlənmişdir, bu da əmlak vergisinin yalnız əsas vəsaitlərdən hesablanmalı olduğunu daha da aydınlaşdırır.
- 199.10. Müəssisələrin balansında olan, **sərnişin və yük daşımalarında istifadə edilən su nəqliyyatı vasitələrinə** görə ödənilməli olan əmlak vergisi üçün nəzərdə tutulan **25 faizlik güzəşt ləğv edilir**.

## Dəyişiklik

| Dəyişiklikdən əvvəl | Yeni redaksiya |
|---|---|
| • 199.4.3. mexaniki nəqliyyat vasitələrinin | • 199.4.3. fiziki şəxslərə məxsus sahibkarlıq fəaliyyətində istifadə olunmayan minik avtomobilləri |

***Qeyd:** Bununla da müəssisələrin və fərdi sahibkarların əsas vəsait kimi balansında olan avtonəqliyyat vasitələri əmlak vergisinə cəlb olunacaqdır.*

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Digər dəyişikliklər



© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Digər dəyişikliklər

## Torpaq vergisi

- 203.1. Torpağın istifadəçisi dedikdə torpaqdan **icarə və ya digər əsaslarla** istifadə edən şəxslər nəzərdə tutulur.
- 204. Dövlət və bələdiyyə mülkiyyətində olan torpaq sahələrini icarə və digər əsaslarla istifadə edən şəxslər bu torpaqlardan torpaq vergisini ödəməli olacaqlar.

- 207.8. Geoloji ayırma sənədi əsasında faydalı qazıntı yataqlarının (neft və qaz yataqları istisna olmaqla) **axtarışı, qiymətləndirilməsi və kəşfiyyatı işlərinə cəlb edilən torpaq sahələrinə** görə torpaq vergisi müvafiq təsdiqedici sənədlər (geoloji-kəşfiyyat işlərini həyata keçirən şəxsin podrat müqaviləsi, geoloji-kəşfiyyat planı, geoloji-kəşfiyyatla bağlı təqdim edilən hesabat) əsasında faydalı qazıntı yataqlarının axtarışı, qiymətləndirilməsi və kəşfiyyatı **işlərinə başlanıldığı təqvim ili üzrə 75 faiz azaldılır**. Bu maddənin müddəaları **eyni vergi ilində** geoloji ayırma sənədi əsasında **faydalı qazıntı yataqlarının** axtarışı, qiymətləndirilməsi və kəşfiyyatı işlərinə cəlb edilən və **istismar edilərək faydalı qazıntılar çıxarılan torpaq sahələrinə münasibətdə tətbiq edilmir.**

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Digər dəyişikliklər

## Mədən vergisi

- 216.2 Gips, gəc faydalı qazıntıları üzrə mədən vergisinin dərəcəsi hər kubmetr üçün 1 manat olaraq müəyyən edilir.
- 217.3 Mədən vergisi ancaq dövlət vergisi hesab ediləcək və yalnız dövlət büdcəsinə ödəniləcəkdir.

- 217-1 Neft və qaz istisna olmaqla, digər faydalı qazıntılara görə vergi ödəyicisi tərəfindən **təqvim ili üzrə hesablanmış mədən vergisinin məbləği** həmin faydalı qazıntıların çıxarıldığı torpaq sahələrinə görə onun tərəfindən həmin təqvim ili üzrə hesablanmış və ödənilmiş **torpaq vergisinin məbləğindən çox olmamaqla təqvim ilinin sonuncu hesabat ayında azaldılır**.

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Digər dəyişikliklər

## Sadələşdirilmiş vergi

- 218-1.1.5.1-1. fiziki şəxsin mülkiyyətində yalnız bir yaşayış sahəsi olduğu halda şəxsin həmin yaşayış sahəsi üzrə **qeydiyyatının olub-olmamasından asılı olmayaraq**, azı 3 təqvim ili ərzində həmin yaşayış sahəsində **yaşamasını təsdiq edən sənədlər** (kommunal xidmətləri göstərən təşkilatlar tərəfindən şəxsin həmin ünvanda **abonent kimi qeydiyyatda olmasını təsdiq edən arayışlar**) olduğu halda həmin yaşayış sahələrinin təqdim edilməsi vergidən azad hesab edilir.



© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Keçid müddəaları

- 2.1 Aksizli malların (neft məhsulları istisna olmaqla) təsərrüfatdaxili yerdəyişməsi barədə elektron qaimə-fakturaya münasibətdə Qanun 2022-ci il iyulun 1-dən qüvvəyə minir.
- 2.2 Elektron əmtəə-nəqliyyat qaiməsi və yük avtonəqliyyatı üçün elektron yol vərəqinin tətbiqi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq ediləcək elektron əmtəə-nəqliyyat qaiməsinin və yük avtonəqliyyatı üçün elektron yol vərəqinin forması, tətbiqi, uçotu və istifadəsi qaydası ilə eyni gündə qüvvəyə minir.
- 2.3 130.4-cü maddə üzrə dəyişiklik orta və iri sahibkarlıq subyektlərinə münasibətdə 2022-ci il yanvarın 1-dən, kiçik sahibkarlıq subyektlərinə münasibətdə isə 2023-cü il yanvarın 1-dən qüvvəyə minir.
- Orta və iri sahibkarlıq subyektləri 2022-ci il yanvarın 1-dək, kiçik sahibkarlıq subyektləri isə 2023-cü il yanvarın 1-dək yaranan debitor və kreditor borcları barədə forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən məlumatı müvafiq olaraq 2022-ci il martın 31-dək və 2023- cü il martın 31-dək vergi orqanına təqdim edirlər.
- 2.5 ƏDV-nin məqsədləri üçün qeydiyyatda olan, kənd təsərrüfatı məhsullarının (yerli və xarici mənşəli) topdan və pərakəndə satışını həyata keçirən şəxslər tərəfindən 2022-ci il yanvarın 1-dək ƏDV ödənilməklə əldə edilmiş və müvafiq əvəzləşdirmə alınmış sahibliklərində qalan kənd təsərrüfatı məhsullarının sonradan satışı zamanı ƏDV həmin malların tam satış dəyərindən hesablanır. Digər hallarda isə kənd təsərrüfatı məhsullarının topdan və pərakəndə satışı zamanı 2022-ci il yanvarın 1-dən etibarən ƏDV ticarət əlavəsindən hesablanır. Kənd təsərrüfatı məhsullarını ƏDV ödəməklə əldə etmiş və müvafiq əvəzləşmə almış şəxslər sahibliklərində qalan həmin kənd təsərrüfatı məhsulları barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş formada məlumatı 2022-ci il yanvarın 31-dək qeydiyyatda olduqları vergi orqanına təqdim etməlidirlər.
- 2.6 Vergi ödəyiciləri vergi orqanı tərəfindən verilən kod-paroldan istifadə etməklə elektron kabinetə daxil olmaq imkanı 2024-cü il yanvarın 1-dək qüvvədədir.
- 2.7. Bu Qanunun 2.1–2.6-cı maddələri nəzərə alınmaqla, bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Nağdsız hesablaşmalar haqqında Qanuna dəyişikliklər



© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

# Nağdsız hesablaşmalar haqqında Qanuna dəyişikliklər

## Dəyişikliklər

- Nağdsız hesablaşmalar haqqında Azərbaycan Respublikasının Qanununa aşağıdakı məzmunlu dəyişikliklər nəzərdə tutulur. Belə ki, 2022-ci ilin yanvarın 1-dən etibarən aşağıda sadalanan ödənişlərin yalnız nağdsız qaydada həyata keçirilməsinə yol veriləcək:
  - ixtisaslaşdırılmış qaydada, o cümlədən komisyon və ticarət təşkilatları vasitəsilə avtomobil satışı üzrə ödənişlər;*
  - pərakəndə satış qaydasında (avtomobillərin satışı istisna olmaqla) təqdim edilən malların satışı üzrə bir əməliyyat çərçivəsində dörd min manatdan artıq olan ödənişlər;*
  - tibb müəssisələri tərəfindən göstərilən tibbi xidmətlər üzrə bir əməliyyat çərçivəsində beş yüz manatdan artıq olan ödənişlər;**
  - “Lotereyalar haqqında” və “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının qanunları ilə tənzimlənən münasibətlər üzrə müəyyən edilmiş ümumi məbləği üç min manatdan artıq olan uduşlar (mükafatlar) və oyunlarda iştirakla bağlı pul ödənişləri (pul qoyuluşları).”***

Aşağıdakı şəxslərə əməliyyatın məbləğinin təqvim ili ərzində belə hala 1ci yol verdikdə 10 faizi, 2ci dəfə yol verdikdə 20 faizi, üç və daha çox dəfə yol verdikdə 40 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir:

- **ödənişi nağd qaydada qəbul edən şəxsə*
- ***tibbi xidmətlərin dəyərini nağd qaydada qəbul edən tibb müəssisəsinə*
- ****uduşları nağd qaydada verən və ya pul qoyuluşlarını nağd qaydada qəbul edən şəxsə*

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

Deloitte.

Deloitte adı Deloitte Touche Tohmatsu Limited şəbəkəsinə daxil olan üzv şirkətlərdən birinə və ya bir neçəsinə və əlaqədar müəssisələrinə aid ola bilər. DTTL ("Deloitte Qlobal") və bu şəbəkəyə daxil olan hər bir üzv şirkət ayrı-ayrılıqda hüquqi şəxslər və müstəqil müəssisələrdir. DTTL müştərilərə xidmətlər göstərmir. Ətraflı məlumat üçün www.deloitte.com/about səhifəsinə daxil olun.

Deloitte qlobal səviyyədə audit və əminlik, konsaltinq, maliyyə, risk, vergi üzrə məsləhət xidməti və digər əlaqədar xidmətlər göstərən aparıcı markalardandır. 150-dən çox ölkədə və ərazidə xidmətlər göstərən üzv şirkətlər şəbəkəsi Fortune Global 500® üzrə beş şirkətdən dördünə öz xidmətlərini göstərir. Deloitte-un təxminən 330,000 peşəkar mütəxəssisinin təklif etdiyi fərq yaradan həllər haqqında ətraflı məlumat üçün www.deloitte.com səhifəsinə daxil olun.

Bu məlumatda yalnız ümumi informasiya əks olunur və Deloitte Touche Tohmatsu Limited şirkətlərindən, onun üzv şirkətlərindən və ya əlaqədar müəssisələrdən (birlikdə "Deloitte Şəbəkəsi") hər hansı biri bu məlumat vasitəsilə peşəkar məsləhətləşmə və ya xidmətlər təmin etmir. Maliyyə fəaliyyətinizə və ya müəssisənizə təsir göstərə biləcək hər hansı qərarlar qəbul etməzdən və ya tədbirlər görməzdən əvvəl peşəkar mütəxəssis ilə məsləhətləşmək daha məqsədəuyğundur. Deloitte Şəbəkəsinə daxil olan heç bir müəssisə bu məlumata istinad edən hər hansı şəxsin məruz qaldığı zərərə görə məsuliyyət daşımır.

© 2022 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.